AZƏRBAYCAN RESPUBLİKASININ NAZİRLƏR KABİNETİ

QƏRAR

“Azərbaycan Respublikasının Şəhərsalma və Tikinti Məcəlləsində, “Texniki təhlükəsizlik haqqında” və “Lisenziyalar və icazələr haqqında” Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2025-ci il 14 fevral tarixli 139-VIIQD nömrəli Qanununun tətbiqi və bununla əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında dəyişiklik edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 11 mart tarixli 347 nömrəli Fərmanının icrası ilə əlaqədar Azərbaycan Respublikası Nazirlər Kabinetinin bəzi qərarlarında dəyişiklik edilməsi haqqında

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, “Azərbaycan Respublikasının Şəhərsalma və Tikinti Məcəlləsində, “Texniki təhlükəsizlik haqqında” və “Lisenziyalar və icazələr haqqında” Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2025-ci il 14 fevral tarixli 139-VIIQD nömrəli Qanununun tətbiqi və bununla əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında dəyişiklik edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 11 mart tarixli 347 nömrəli Fərmanının 2.2-ci bəndinin icrasının təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. “Təhlükə potensiallı və dövlət əhəmiyyətli tikinti obyektlərinin Siyahısı”nın təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2016-cı il 30 dekabr tarixli 531 nömrəli Qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 12, maddə 2246 (CildI); 2024, № 4, maddə 440) aşağıdakı dəyişikliklər edilsin:

1.1. adında və ikinci abzasda “Təhlükə potensiallı” sözləri “Xüsusi riskli” sözləri ilə əvəz edilsin;

1.2. həmin Qərarla təsdiq edilmiş “Təhlükə potensiallı və dövlət əhəmiyyətli tikinti obyektlərinin” Siyahısı”nın adında və 2-ci hissəsində “Təhlükə potensiallı” sözləri “Xüsusi riskli” sözləri ilə, 1-ci hissəsində “təhlükə potensiallı” sözləri “xüsusi riskli” sözləri ilə əvəz edilsin.

2. “Təhlükə potensiallı və ya dövlət əhəmiyyətli tikinti obyektlərinin tikintisinə icazə ilə bağlı əlavə tələblər”in təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2017-ci il 10 fevral tarixli 50 nömrəli Qərarında (Azərbaycan

Respublikasının Qanunvericilik Toplusu, 2017, № 2, maddə 303 (Cild I); 2024, № 4, maddə 440) aşağıdakı dəyişikliklər edilsin:

2.1. adında və ikinci abzasında “Təhlükə potensiallı” sözləri “Xüsusi riskli” sözləri ilə əvəz edilsin;

2.2. həmin Qərarla təsdiq edilmiş “Təhlükə potensiallı və ya dövlət əhəmiyyətli tikinti obyektlərinin tikintisinə icazə ilə bağlı Əlavə Tələblər”in adında və 2-ci hissəsində “Təhlükə potensiallı” sözləri “Xüsusi riskli” sözləri ilə, 1-ci hissəsində “təhlükə potensiallı” sözləri “xüsusi riskli” sözləri ilə əvəz edilsin.

3. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2017-ci il 29 dekabr tarixli 615 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 12, maddə 2560 (CildI); 2025, № 2 (II kitab), maddə 196) ilə təsdiq edilmiş 2 nömrəli əlavə – “Lisenziyalar və icazələr” portalına inteqrasiya edilməli olan informasiya sistemlərinin siyahısı və həmin informasiya sistemlərinin portala inteqrasiyası üçün son müddətlər”in 9.3-cü bəndinə hər iki halda “dövlət” sözündən əvvəl “vahid” sözü əlavə edilsin.

4. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2021-ci il 17 fevral tarixli 39 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021, № 2, maddə 204 (CildI); 2024, № 2, maddə 218, № 3, maddə 306) ilə təsdiq edilmiş 1 nömrəli əlavə – “Əlvan və qara metal tullantılarının qəbulu, uçotu, radiasiya və partlayış təhlükəsizliyi baxımından müayinədən keçirilməsi Qaydaları”nın 1.3-cü bəndinə “dövlət” sözündən əvvəl “vahid” sözü əlavə edilsin.

5. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il 30 avqust tarixli 297 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2023, № 8 (II kitab), maddə 1280 (Cild I); 2024, № 1, maddə 95, № 3, maddə 305; 2025, № 2, maddə 204) ilə təsdiq edilmiş “Tikinti obyektlərinin qazpaylayıcı şəbəkəyə qoşulması və ya əlavə qaz həcmi alması Qaydası”nın 3.15-ci bəndi aşağıdakı redaksiyada verilsin:

“3.15. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2025-ci il 21 may tarixli 163 nömrəli Qərarı ilə təsdiq edilmiş “Təhlükə potensiallı obyektlərin vahid dövlət reyestrinin aparılması Qaydası”nın tələblərinə uyğun olaraq qazpaylayıcı şəbəkəyə qoşulan təhlükə potensiallı obyektlərin siyahısına daxil olan tikinti obyektləri təhlükə potensiallı obyektlərin vahid dövlət reyestrində qeydiyyatdan keçirilir.”.

Əli Əsədov
Azərbaycan Respublikasının Baş naziri

Bakı şəhəri, “ 22 ” “ sentyabr ” 2025-ci il

№ 277